UOT 94 (479.24)

*E.L.Həsənov*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., H.Əliyev pr., 419*
*E-mail: el-hasanov@mail.ru*

# GƏNCƏDƏ ŞƏHƏR MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA MULTİKULTURAL DƏYƏRLƏRİN ƏHƏMİYYƏTİ

*Gəncə şəhərinin çoxəsrlik tarixə malik olan yaşayış məhəllələrində multikulturalizm mədəniyyəti ənənələri elmi əsərdə tarixi-etnoqrafik nöqteyi-nəzərdən tədqiq edilmişdir. Gəncədə birgəyaşayış mədəniyyəti – tolerantlıq ənənələrinin təşəkkülü və mühafizə edilməsi, həmçinin çoxsaylı qədim tarixi-memarlıq abidələrinin əhəmiyyəti məsələsi müxtəlif yazılı mənbələr, elmi əsərlər, arxiv sənədləri və tarixi məxəzlər əsasında araşdırılmışdır. Bununla yanaşı, şəhərin qədim tarixə malik olan məhəllələrində əsrlər boyu multikulturalizmin, tolerant dəyərlərin yaranması və inkişafının səciyyəvi xüsusiyyətləri öyrənilmişdir. Müasir günümüzə qədər mövcudluğunu qoruyub saxlamış məscidlər, pravoslav kilsə, alman-lüteran kilsəsi, islamdan əvvəlki dövr tariximizi əks etdirən alban məbədləri şəhərdə çoxəsrlik birgəyaşayış mədəniyyətinin – tolerantlığın mühüm nümunəsi kimi tədqiq edilmişdir. Məqalədə elmi sənədlərə istinad edilərək şəhərin əhalisinin milli-etnik tərkibi haqqında məlumatlar qeyd edilmişdir. Bundan əlavə, Gəncə şəhərinin sadalanan ənənəvi tarixi məhəllələri ilə yanaşı, yəhudilər məhəlləsinin, ləzgilər, lahıclar yaşamış xüsusi şəhərsalma vahidlərinin mövcudluğu təkzibedilməz tarixi dəlillər, elmi məlumatlar əsasında diqqətə çatdırılmışdır.*

*Açar sözlər:* Azərbaycan, Gəncə, birgəyaşayış ənənələri, multikulturalizm, şəhər mədəniyyəti

*"Ülviyyət timsalı tək ucalmağa çalış sən,*
*Ülviyyət göylərindən öc almağa çalış sən".*
***Şeyx Nizami Gəncəvi***

## *Giriş*

Qədim tarixə malik elm və mədəniyyət mərkəzlərindən olan Gəncə şəhəri əsrlər boyu birgəyaşayış mədəniyyətini səciyyələndirən milli-mənəvi dəyərləri ilə seçilmişdir. Burada milli, dini mənsubiyyətindən asılı olmayaraq, insanlar daim sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Bir məqamı xüsusi qeyd etmək zəruridir ki, şəhərdə müasir dövrümüzə qədər qorunub saxlanılmış on doqquz məscid, dörd türbə, iki məqbərə, İmamzadə abidəsi kimi islam mədəniyyətinə aid yerli memarlıq inciləri ilə yanaşı, islamaqədərki dövrə aid alban məbədləri, kilsələr, həmçinin XIX əsrdə inşa edilmiş xristian və iudaizm dinlərinə aid abidələr də mövcuddur. Ölkəmizin qərb bölgəsindəki ən qədim pravoslav kilsələrindən biri Gəncə şəhərinin Dabbaqlar məhəlləsində yerləşir və müasir dövrümüzə qədər xristian möminlər burada dini ayinlərini yerinə yetirir, mühüm tarixi tarixləri və bayramlarını qeyd edirlər. Bu qədim məbəd mühüm tarixi və memarlıq abidəsi kimi qorunur, şəhər sakinləri pravoslav möminlərə hörmət və ehtiramla yanaşırlar.

Qeyd etmək lazımdır ki, ölkəmizdə ən böyük və qədim Alman lüteran kilsələrindən biri şəhərin vaxtilə alman əhalisinin yaşadığı Əttarlar məhəlləsində yerləşir və mühüm tarixi-memarlıq abidəsi kimi mühafizə edilir. Şəhərin əksər əhalisinin müsəlman olmasına

baxmayaraq, Gəncə sakinləri əsrlərdən bəri qədim alban xristian məbədlərinə, həmçinin gürcü kilsəsinə və digər abidələrə xüsusi hörmətlə yanaşırlar.

Gəncə Yəhudilər küçəsi, Ləzgilər məhəlləsi, Lahıc məhəlləsi kimi yaşayış məskənlərinin olduğu, fərqli millətlərin və milli azlıqların sülh şəraitində əsrlər boyu yaşadıqları azsaylı şəhərlərdən biridir. Səbəb isə bu şəhərdə, ümumiyyətlə, ölkəmizdə birgə yaşayış mədəniyyətinin qorunması, multikultural, tolerant dəyərlərə sadiqliyin mövcudluğudur. Gəncə şəhərinin çoxəsrlik tarixinin qoruyucuları olan tarixi-memarlıq abidələri, o cümlədən qədim İmamlı məhəlləsində mövcud olmuş çoxsaylı məscid-mədrəsələr, İmamzadə türbəsi islami prinsip və dəyərlərdən çıxış edərək sülhün, əmin-amanlığın qoruyucusu qismində çıxış edir. İslam mədəniyyəti və tarixinin qoruyucusu olan bu abidə, burada mövcud olan saf, müqəddəs ilahi mühit xalqımızın birliyinin, vəhdətliliyinin, həmrəyliyinin təbliğinə xidmət edir.

1930-cu ildən 1944-cü ilə qədər İmamzadə kompleksinin bəzi yardımçı binaları (hücrələri) kimsəsiz uşaqlar üçün sığınacaq kimi istifadə edilib. Bu müqəddəs məkanda Böyük Vətən müharibəsi illərində müxtəlif millətlərin nümayəndələri olan yeniyetmə və gənclər təmənnasız olaraq yaşamış, onlara müxtəlif peşələr tədris edilmişdir. Bu gün müqəddəs İmamzadə ziyarətgahına hələ də müxtəlif dini inancın tərəfdarları olan və artıq yaşa dolmuş ahıl insanlar minnətdarlıq hissi ilə ziyarətə gəlirlər. Gəncə İmamzadə türbəsi xalqımızın yüksək dini tolerantlıq, dözümlülük mədəniyyətinin də təsbitinə şərait yaradır. Etnik, mənəvi-ideoloji xüsusiyyətlərimiz içərisində özünəməxsus yeri olan və dünya xalqları üçün həqiqi nümunə kimi göstərilə bilən bu nəcib insani keyfiyyətimiz ölkəmizin digər ziyarətgahlarında olduğu kimi, İmamzadədə də qorunub saxlanılmışdır.

### *Tədqiqatın mənbəyi və üsulları*

Gəncənin qədim tarixə malik İmamzadə ziyarətgahında və digər mühüm tarixi məkanlarına müxtəlif dinlərə mənsub olan qeyri-müsəlman ziyarətçilərin heç bir ayrı-seçkiliyə, təzyiqlərə məruz qalmadan abidələri ziyarət edə bilmələri xalqımızın yüksək birgəyaşayış mədəniyyəti dəyərlərinə sadiqliyinin göstəricisidir. Gəncə İmamzadə türbəsi şəhərin qədim ərazisində, xarabalıqları yaxınlığında yerləşir.

Beləliklə, Gəncə şəhərinin ərazi, məkan baxımından tarixi yerdəyişmələrinin daha dəqiq müəyyən edilməsində də İmamzadə kompleksinin mənbəşünaslıq dəyəri danılmazdır. Abidənin müasir dövrümüzdə qədim Gəncə ərazisində yerləşməsi isə onun elmi tədqiqinə münasib şərait yaradır, maddi mənbələrin qorunması, mühafizə olunması, həmçinin müvafiq arxeoloji qazıntı tədbirlərinin, tarixi, etnoqrafik araşdırmaların effektiv surətdə həyata keçirilməsinə münasib imkan vermiş olur. Haqqında bəhs edilən epiqrafik mənbələrdə Gəncə tarixinin olduqca mühüm məqamları ehtiva olunmuşdur. Bu kitabələrdəki tarixi faktlar, öz növbəsində Gəncə İmamzadə kompleksinin şəhərin ümumi inkişafındakı mövqeyini, əhəmiyyətini təsbit etməklə yanaşı, eyni zamanda Gəncədə çoxəsrlik, təmənnasız xeyriyyəçilik ənənələrinin də mövcud olduğunu, müxtəlif tarixi mərhələlərdə həyata keçirildiyini sübuta yetirir.

Bununla yanaşı, qeyd olunan epiqrafika nümunələri həm də Gəncədə memarlıq, sənətkarlığın çox qədim dövrlərdən etibarən formalaşdığını, zaman keçdikcə əvvəlki ənənələrə istinad etmək şərtilə yeni-yeni xüsusiyyətlərlə zənginləşdiyini, beləliklə də şəhər mədəniyyəti ünsürlərinin (elementlərinin) çox əski tarixi dönəmlərə əsaslandığını göstərir. Gəncə İmamzadəsinin epitafiya nümunələrinin, qədim qəbir abidələrinin, məzarüstü xatirə komplekslərinin ən böyük tarixi əhəmiyyətə malik olan xüsusiyyətləri sırasında Gəncənin, bütövlükdə xalqımızın qədim dini görüş və təsəvvürlərinin, axirət dünyası ilə bağlı inam və inanclarının tədqiq olunmasına şərait yaratması qeyd edilə bilər [4-7; 16].

Gəncə İmamzadəsi, onun ətrafında mövcud olan çoxsaylı, müxtəlif tarixi mərhələləri əks etdirən və bu səbəbdən də bir-birindən kifayət qədər fərqlənən, amma bir çox ümumi cəhətlərə malik olan məzarlar, həmçinin qəbirüstü tikililər (abidələr) xalqımızın, o cümlədən də Gəncə əhalisinin etnoqrafik ənənələrinin, dəfn adət və mərasimləri ilə bağlı təsəvvür və ayinlərinin elmi-nöqteyi nəzərdən təfsilatlı surətdə araşdırılmasında dəyərli mənbə kimi çıxış edir. Bu baxımdan sərdabələr xüsusi əhəmiyyətə malik olan abidələrdir. Bu dəyərli tarixi abidə özündə yalnız yerli memarlıq, inşaat sənəti ənənələrini ehtiva etməklə kifayətlənmir. Belə ki, abidənin türbə hissəsinin üzərində işlənilmiş nəfis bənövşəyi, mavi, yaşıl rəngli kaşı nümunələri şəhərdə dulusçuluq sənətinin, o cümlədən mayolikanın, ziyarətgahın əsas giriş qapılarının ətrafında quraşdırılmış üzəri işləməli hasarlar metalişləmə sənətinin memarlıq abidələrində uğurla tətbiqindən xəbər verir. Ziyarətgahın ərazisində yeddi hektar ərazidə olan geniş məzarlıq (qəbiristanlıq) ərazisində çoxsaylı qəbirüstü abidələrdə təsadüf edilən piktoqrafik (şəkli) və ideoqrafik (fikri) yazı nümunələri Gəncədə orta əsrlər dövründə inkişaf etmiş ənənəvi həkkaklıq sənətinin izlərini özündə əks etdirir.

İmamzadə türbə-kompleksi xalqımızın, o cümlədən gəncəlilərin həyatında o qədər əvəzsiz mövqe tutmuşdur ki, uzun müddət ərzində müxtəlif dönəmlərdə ölkəmizin paytaxtı olmuş, özünün bütün mövcudluğu dövründə isə mühüm sosial, elmi-mədəni, iqtisadi və siyasi mərkəz rolunu qoruyub saxlamış qədim Gəncəmizdə bu abidə əhali tərəfindən müqəddəs bir məkan olaraq mühafizə edilmişdir.

Gəncə İmamzadə abidəsi geniş etnoqrafik mənada xalqımızın mental dəyərlərinin, xüsusilə də ailə və nigahla bağlı ənənələrimizlə əlaqədar dəyərlərin qorunması sahəsində əvəzsiz bir məkandır. Belə ki, bütün bölgələrimizdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin, adətlərimizin mühafizəsi və gələcək nəsillərə çatdırılması sahəsində Gəncədə də ailə, nigah məsələlərinə xüsusi diqqət yetirilir. Məhz elə bu səbəbdən də ailəyə müqəddəs bir varlıq kimi yanaşıldığından, Gəncədə yeni ailə quranların, həmçinin onların yaxın qohum-əqrəbalarının birlikdə müqəddəs İmamzadə pirini ziyarət etmələri ənənə halını almışdır.

Gəncə şəhərinin bir çox tarixi-memarlıq abidələri kimi, İmamzadə türbəsi xalqımızın yüksək dini tolerantlıq, dözümlülük mədəniyyətinin də təsbitinə əsas verir. Etnik, mənəvi-ideoloji xüsusiyyətlərimiz içərisində özünəməxsus yeri olan və dünya xalqları üçün həqiqi nümunə kimi göstərilə bilən bu müsbət insani keyfiyyətimiz ölkəmizin digər ziyarətgahlarında olduğu kimi, İmamzadə də qorunub saxlanılmışdır. Geniş mənada Gəncə İmamzadə türbə-kompleksinin xalqımızın milli dövlətçilik ənənələrinə münasibəti, sadiqliyinin, təəssübkeşliyinin güclənməsinə əhəmiyyətli təsir göstərməsi qeyd oluna bilər. Belə ki, İmamzadə ziyarətgahı, ilk növbədə bizim xalqımızın milli-sərvəti, tarixi abidəsi olmaq etibarilə maddi-mədəni irsimizin daşıyıcısı kimi nəsildən-nəslə etnik mənsubiyyətimizi ötürərək onu yaşadır [1-3].

*Mövzunun tətbiqi əhəmiyyəti*

Xalqımızın ən mühüm keyfiyyətlərindən biri də xeyirxahlıq, təmənnasız xeyriyyəçilik, əliaçıqlıqdır. Bu baxımdan İmamzadə ziyarətgahı həqiqi örnək mənbəyidir. Belə ki, istər mühüm dövlət bayramları, dini mərasimlər təşkil edilən zaman, istərsə də adi günlərdə çoxlu sayda müxtəlif sosial qrup və zümrələrin nümayəndələri olan insanlar tərəfindən zəvvarlar üçün ehsan süfrələri təşkil olunur. Bundan əlavə, mühüm dini mərasim, bayramlarda çoxsaylı mömin insanların, şəhər sakinlərinin heç bir fərq qoyulmadan könüllü surətdə qanvermə aksiyalarında iştirak etməsi isə xüsusilə təqdirəlayiq əməldir. Gəncənin tarixən birgəyaşayış mədəni ənənələrinin qorunduğu şəhərlərdən olduğunu sübut edən məhəllələrdən biri də Səbzəvad olmuşdur. Burada mövcudluğunu müasir günümüzə qədər davam etdirən qədim Səbzikar qəbiristanlığı xüsusi əhəmiyyəti ilə seçilir.

1968-ci ildə ölkəmizin yerli əhəmiyyətli daşınmaz tarix-memarlıq abidələri siyahısına daxil edilmiş Səbzikar qəbiristanlığı bu baxımdan xüsusi əhəmiyyətə malik maddi mədəniyyət nümunəsi, açıq səma altında muzey kimi dəyərlidir. Gəncə Səbzikar qəbiristanlığının qəbirüstü abidələri, bir-biri ilə oxşar xüsusiyyətlərinin mövcud olmasına baxmayaraq, heç bir türbə yaxud türbə-sərdabə digərinin memarlıq nöqteyi-nəzərdən üslubunu təkrar etmir. Xüsusilə vurğulamaq lazımdır ki, Gəncə Səbzikar məzarlığı ərazisində mövcud olan qəbir və məzar abidələrinin bir çox qisminə nəinki yalnız Azərbaycanın ayrı-ayrı bölgələrində, hətta dünyanın əksər ərazilərində təsadüf olunmur [8-10].

Bu təkrarsız və bənzəri olmayan unikal maddi-mədəniyyət nümunələri o qədər səciyyəvi, eyni zamanda, fərqli xüsusiyyətlərə, sənətkarlıq elementlərinə sahibdir ki, onları vahid bir təsnifatda qruplaşdırmaq da asan deyildir. Müasir ombudsman - insan hüquqları üzrə müvəkkil təsisatının yüzilliklər ərzində mövcud olduğu Gəncə şəhərində ağsaqqal nəsihətinə, valideyn məsləhətinə ehtiram həmişə müqəddəs vəzifə, amal kimi nəsildən-nəslə ötürülmüşdür.

Bu səbəbdən də əcdadlarımızın mədfəni-əbədiyyata qovuşduğu məkanı hesab olunan məzarlıqların mühafizə edilməsi, valideynlərin uyuduğu məkanlara ehtiramla yanaşılması dahi Nizami yurdu Gəncədə ən mühüm, sabit ənənələrdən hesab olunur. Qədim tarixə malik olan Gəncənin İmamzadə, Səbzikar kimi daha böyük qəbiristanlıqları ilə yanaşı, hələ ilk orta əsrlər mərhələsindən etibarən XX əsrə qədər mövcudluğunu və əsas səciyyəvi şəhərsalma xüsusiyyətlərini qoruyub saxlamış hər bir məhəllənin ayrıca qəbiristanlıq sahəsinin xüsusi ehtiramla qorunması bir daha qeyd edilən vacib etnoqrafik mülahizəni sübuta yetirir [4-7].

Tədricən XIX əsrin sonu və XX əsrin əvvəlləri, xüsusilə də 1920-ci ildən sonra Azərbaycan Demokratik Cümhuriyyətinin süquta uğraması və ölkəmizin Sovetlər birliyi tərəfindən işğalından sonrakı mərhələlərdə əksər məhəllə qəbiristanlıqları müxtəlif bəhanələrlə sökülməyə məruz qalmış, özünün yerini yol qovşaqları, ayrı-ayrı tikintilərə vermişdir. Bununla yanaşı, eyniadlı Səbzəvad məhəlləsinin tarixi ərazisinə daxil olmuş və Gəncə şəhərinin sonuncu yerdəyişməsindən sonrakı mərhələsinin təqribən beş yüz illik dövrünü özündə ehtiva edən Səbzikar qəbiristanlığındakı məzarların müəyyən qismi müasir dövrümüzə qədər mövcudluğunu qoruyub saxlamışdır. Qeyd olunan qəbir abidələrinin sənətkarlıq, tikinti quruluşu baxımından yekcins olmayan nümunələrini bir sıra səciyyəvi cəhətləri baxımından təsnif və tədqiq etmək daha məqsədəuyğundur [6-8; 12-14].

Əsrlər boyu Gəncə şəhərinin İmamlı, Səbzəvad, Əttarlar, Zərrabi kimi ənənəvi məhəllələrində birgəyaşayış mədəniyyətinin təşəkkülü üçün münbit şərait mövcud olmuşdur. Bu tarixi həqiqəti qeyd edilən şəhərsalma vahidlərinin tərkibində müasir günümüzə qədər qorunub saxlanılmış abidələr, İmamzadə türbə-kompleksi, Səbizkar qəbiristanlığı, Şəhidlər xiyabanında yerli əhali ilə yanaşı rus, ukrayna, belarus, yəhudi və hətta İspaniyada ötən əsrin 30-cu illərinin sonlarında baş vermiş vətəndaş müharibəsi zamanı Gəncə şəhəri 30 saylı orta məktəbdə fəaliyyət göstərmiş təyyarəçilər məktəbində təhsil almış milliyyətcə ispan, macar, rus və digər millətlərdən olan aviatorların məzarlarının qorunub saxlanılması təsdiq edə bilər. Gəncə sakinlərinin "Səviskar" adlandırdıqları və yerli sakinlərin qədim tarixi mərhələlərdən qaynaqlanan ləhcəsində adı məhz bu cür səslənən unikal qəbiristanlığın ərazisində tarixən formalaşmış və müasir sahəsinə daxil olan məzar abidələrinin bənzərsiz sənətkarlıq və memarlıq xüsiyyətləri, həmçinin epitafik baxımdan diqqətəlayiq daş kitabə nümunələri Səbzikarın tarixi keçmişindən soraq verir. Eyni zamanda, burada olan müxtəlif məzarların tarixi nümunə, maddi mədəniyyət abidəsi kimi səciyyələndirilməsi zamanı bir deyil, bir neçə mühüm məsələyə diqqət yetirilməsi tələb olunur. Belə ki, Gəncə Səbzikar qəbiristanlığını digər çoxsaylı oxşar məkanlardan fərqləndirən ən ümdə xüsusiyyətlərindən biri burada yalnız qəbirlərin mövcud olması deyil, həm də ilk baxışdan sadəcə qəbir kimi adlandırılması təbii

təsir bağışlayan, lakin elmi cəhətdən fərqli istilahlarla adlandırılması doğru hesab edilən təkrarsız maddi mədəniyyət nümunələrinin günümüzədək mühafizə olunmasıdır. Qeyd edilən qəbirlərlə yanaşı, Səbzikarda çoxsaylı qəbirüstü abidələrə də təsadüf edilir. Bəhs olunan qəbirüstü abidələr bir sıra cəhətləri baxımdan qəbir nümunələrindən seçilir və ayrıca sənətkarlıq, eyni zamanda memarlıq nümunələri olaraq təsnif edilməsi məqsədəuyğundur. Səbzikar qəbiristanlığında mövcud olan və çox mühüm tarixi mənbələr kimi dəyərləndirilən digər bir qism maddi mədəniyyət nümunələri isə məzarlar və məzarüstü abidələrdir. Doğrudur, ilk baxışda qəbir və məzar və yaxud da qəbirüstü, məzarüstü abidə ifadələri işlədilərkən sanki eyni xüsusiyyətlərə malik olan maddi abidələrin nəzərdə tutulduğu güman edilə bilər. Amma məhz tarixi-etnoqrafik, həmçinin bir sıra səciyyəvi sənətkarlıq cəhətləri, bədii memarlıq, dekorativ-tətbiqi xüsusiyyətləri sayəsində yuxarıda adları sadalanan abidələrin bir çox oxşar cəhətlərə sahib olması ilə yanaşı, ayrı-ayrı səciyyəvi fərqləndirici elementləri baxımından bir-birindən kifayət qədər seçildiyi üzə çıxır [5-7; 14-18].

Gəncə Səbzikar məzarlığının, bu müqəddəs məkanın - əsrlər boyu şəhər sakinlərinin dəyişməz ziyarətgahı olan ərazinin tərkibinə daxil olan və əsasən qəbiristanlığın tarixi baxımdan ən qədim məzarları hesab edilən nümunələri yalnız İslam - müsəlman mədəniyyəti ənənələrinin, o cümlədən qəbirüstü xatirə abidələrinin inşa edilmə xüsusiyyətlərini özündə ehtiva etməklə kifayətlənməmişdir. Bəhs olunan dəyərli epitafiya nümunələri – qədim qəbir və məzarlar üzərində təsvir, həmçinin yazı elementləri, eləcə də qəbir abidələrinin forma və hazırlanma texnologiyasında minilliklərə istinad edən, həmçinin Azərbaycan ərazisində islam dininin yayılmasından əvvəlki tarixi mərhələlərdə mövcud olan və inkişaf edən yerli, milli memarlıq, sənətkarlıq ənənələrinin tətbiq edildiyi nəzərdən qaçmamalıdır. Çünki Səbzikar kompleksi məzarlarının tədqiq olunan bu nisbətən daha qədim nümunələri aşkar surətdə özündə Gəncənin yerli Aran memarlıq məktəbinin çoxəsrlik dəyərli sənətkarlıq cəhətlərini əks etdirir [17-21].

Bir çox ənənəvi milli bayramlarımızın qeyd olunduğu vaxtlarda Gəncə sakinləri qohum-əqrəbalarının, vəfat etmiş ailə üzvlərinin məzarlarını baş çəkərkən müvafiq bayramın mühüm göstəricilərini, atributlarını özləri ilə gətirir, qəbirlərin üzərinə əklil, gül-çiçək dəstələri ilə yanaşı, səməni kimi milli ənənələrimizi əks etdirən əşyaları da qoymaqla bir növ əski tarixi mərhələlərdən qaynaqlanan inam və etiqadlarımızı nümayiş etdirmiş olurlar. Bir məqama xüsusi diqqət yetirilməsi vacibdir ki, Gəncə Səbzikar qəbiristanlığı kimi digər mühüm ziyarətgahlarımız, ehtiram bəstənilən məkanlarımız, o cümlədən də burada inşa edilmiş abidələrimizdə, müxtəlif maddi mədəniyyət nümunələrimizdə rast gəldiyimiz bu cür əski adət və ənənələrimiz heç vaxt bütpərəstlik, politeizm (çoxallahlılıq) ilə əlaqələndirilə bilməz. Çünki əcdadların ruhuna, heyvan və bitkilərə, həmçinin ayrı-ayrı təbiət abidələrinə sitayişi ehtiva edən fetişizm, totemizm və animizm kimi primitiv, bəsit dini təsəvvür sistemlərindən fərqli olaraq, bizim əcdadlarımız hələ eradan əvvəl IV-II minilliklərə aid çox saylı maddi tapıntıların da sübut etdiyi kimi, təkallahlığı təcəssüm etdirən tanrıçılıq (yaxud göy tanrı dini), zərdüştlük, atəşpərəstlik kimi dini etiqadlara əsaslanmışlar [22-23].

Məhz bu səbəbdən də islam dininin qəbulundan sonrakı tarixi mərhələlərdə də müasir dövrümüzdə olduğu kimi, islamdan əvəlki milli-mənəvi dəyərlərimiz, islami, dini ənənələrimizlə birgə vəhdət şəklində inkişaf etmiş və nəsildən-nəslə ötürülərək mühafizə edilmişdir. Eyni zamanda, Gəncə Səbzikar qəbiristanlığı, İmamzadə türbəsi kimi qədim tarixə malik ziyarətgah əhəmiyyətinə malik olan məkanlarımızda islami dəyərlərlə milli-mənəvi ənənələrimizin üzvi surətdə bağlılığının təcəssümü olan qəbir və qəbirüstü xatirə abidələri digər çox mühüm bir tarixi həqiqəti diqqətə çatdırmış olur.

Belə ki, VII-VIII əsrlərdə qüdrətli imperiya yaratmış və olduqca geniş əraziləri tabe edən və Azərbaycan ərazisinə gəlmiş ərəblər ilk dəfə olaraq onların heyrətinə səbəb olmuş

məsələrlə üzləşmişlər. Belə ki, onlar ilk dəfə olaraq çox vətənpərvər, cəsur insanların inadkar müqaviməti ilə baş-başa qalmışdırlar. Bundan əlavə, ərəblər özlərindən qat-qat daha üstün mədəni dəyərlərə sahib olan əcdadlarımızın yaratdıqları abidələr qarşısıda heyran olmuşlar.

Ən azı beş min illik dövlətçilik tarixinə malik olan xalqımızın bu zəngin idarəçilik təcrübəsindən hələ uzun müddət ərzində bəhrələnmişlər. Yuxarıda sadalanan ənənələr, öz növbəsində yalnız Səbzikar tarixi – memarlıq kompleksində dövrümüzə qədər qorunub saxlanılmış qəbir abidələrinin tarixi – xronoloji cəhətdən aid olduğu XVII-XVIII əsrlər mərhələsində mövcud olmuş və məzarların inşasında tətbiq olunan sənətkarlıq xüsusiyyətləri ilə məhdudlaşmır. Təqdirəlayiq haldır ki, bəhs edilən qəbir və qəbirüstü abidələrdə özünü büruzə verən milli sənətkarlıq, yerli memarlıq xüsusiyyətləri Azərbaycanın ənənəvi mədəniyyətinin vahid bir özülə, təmələ istinad edən, lakin ayrı – ayrı tarixi mərhələlərdə tədricən formalaşmış və inkişaf etmiş ən mütərəqqi cəhətlərindən qaynaqlanmışdır [24-29].

*Nəticə*

Azərbaycan ərazisində VII-VIII əsrlərdən etibarən islam dininin yayılması nəticəsində artıq bəhs olunan mərhələlərdən, xüsusilə də IX əsrdən başlayaraq Gəncə kimi möhtəşəm şəhər mədəniyyəti mərkəzlərində də, müvafiq olaraq müsəlman qaydasında yeni dəfnetmə adəti formalaşmağa başlamışdır. Bu tarixi prosesin qanunauyğun nəticəsi olaraq müsəlman dəfnetmə adəti ilə birlikdə yeni tip qəbir və xüsusilə də qəbirüstü xatirə abidələrinin də yayılması tədricən geniş miqyas almışdır. Bəhs olunan qəbirüstü abidələri aşağıdakı kimi təsnif etmək olar:

Sarkofaq tipli qəbir abidələri, baş daşları və sinə daşları. İstər sarkofaq – sərdabə, istərsə də başdaşı və sinədaşı olan qəbir və qəbirüstü xatirə abidələri üçün mühüm hesab edilən səciyyəvi cəhətlərindən biri onların quruluşu ilə yanaşı, üzərində ərəb əlifbası ilə epitafiya, həmçinin oyma və qabartma üsulu ilə nəbati, eyni zamanda həndəsi naxışların həkk edilməsi olmuşdur. Bu cür fərqli, xüsusilə də qabarıq olması ilə seçilən (daha doğrusu, burada relyefli, relyef səciyyəli təsvirlər, naxış elementləri nəzərdə tutulur) və bəhs edilən ilk orta əsrlər mərhələsi üçün yeni hesab edilən məzarların, qəbir və qəbirüstü xatirə abidələrinin islam dininin yayıldığı olduqca böyük bir coğrafi arealda geniş surətdə tətbiq olunmasına baxmayaraq, Azərbaycan ərazisində, xüsusilə də Gəncə kimi daim mədəniyyət mərkəzi olaraq mövqeyini qoruyan şəhərdə minilliklərə istinad edən ənənələr əsasında inkişaf etmiş dini və milli dəyərlər dəfn adətlərindən də yan keçməmişdir. Nəticədə isə çoxəsrlik sənətkarlıq, memarlıq ənənələrimiz VIII-IX əsrlərdən etibarən müsəlman dəfn adət və mərasimlərinin də zənginləşməsi, yeni xüsusiyyətlərin qədim ənənələrə istinad edilməsi şərti ilə qəbir abidələrinin inşası prosesinə sirayət etməsinə şərait yaratmışdır.

Bundan əlavə, Səbzikar məzarlığında rast gəlinən çoxsaylı abidələrin də yeraltı Gəncədən aşkar olunmuş ayrı-ayrı maddi mədəniyyət nümunələri ilə qarşılıqlı elmi-müqayisəli təhlilinin aparılması nəticəsində həm bəhs edilən abidələrin dəqiq xronoloji dövrləşdirilməsi həyata keçirilə bilər, eyni zamanda Səbzikardakı məzarüstü xatirə abidələrinin üzərində əks etdirilmiş müxtəlif aşkar və kosmoqonik, tarixi əhəmiyyətə malik, ilk baxışda tam açıqlanması mümkün olmayan dərin məzmunlu təsvirlərin izahının mümkünlüyü üzə çıxmış olar.

Gəncə Səbzikar abidəsinin nümunəsində məhz yerli ənənələr əsasında təşəkkül tapmış və tədrici inkişaf sayəsində ümumdünya və eyni zamanda ümumislam mədəniyyətinin zənginləşməsində Gəncənin, ümumiyyətlə Azərbaycan xalqının çox yüksək, müstəsna rolunu aşağıdakı mühüm müddəalarla təsbit etmək və ilk dəfə elmi ictimaiyyətə çatdırmaq mümkündür. Əvvəla, Səbzikar qəbiristanlığında günümüzədək qorunub saxlanılmış və inşa edilmə tarixi XVIII-XIX əsrlərə təsadüf edən qüləvari formalı günbəzə sahib türbələrin

tikilmə üslubu, inşat keramiksının zərgər dəqiqliyi ilə tətbiq olunması. Bəhs olunan sənətkarlıq və memarlıq üsulunun geniş şəkildə istifadə edilməsi ilk orta əsrlər mərhələsi, xüsusilə də IX-XII əsrlərdə yüksək intişar tapmışdır. Amma Gəncə üçün səciyyəvi hesab olunan kərpiclə inşa üslubu daha qədim tarixi mərhələlərə aid maddi tapıntılarda üzə çıxarılmışdır.

Məhz minilliklər ərzində Gəncə üçün səciyyəvi sənətkarlıq və eyni zamanda memarlıq ənənəsi kimi dəyərləndirilən məşhur "Qızıl kəsişmə" kərpic inşası Səbzikar tarixi-memarlıq abidəsinin çoxlu sayda məzarları və xüsusilə də məzarüstü abidələrində, türbə-sərdabələrində əyani surətdə mühafizə edilmişdir.

Gəncə Səbzikar qəbiristanlığının çoxəsrlik tarixə malik məzar abidələrinin elmi əsaslarla tədqiqi sayəsində şəhərdə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin yeni mənbələrə istinadən daha müfəssəl öyrənilməsi mümkündür. Artıq Azərbaycanda islam dininin qəbul edildiyi və əhalinin əksər qisminin müsəlman olaraq ictimai həyatı və məişətində bu qaydalarla yaşadığı orta əsrlər mərhələsinin istər ilk orta əsrlər, istər inkişaf etmiş orta əsrlər, istərsə də son orta əsrlər dövrlərində əski türk ənənələrinin əsas mədəni, mənəvi, əxlaqi və o cümlədən də dini – ideoloji cəhətləri mühafizə edilirdi. Heç şübhəsiz ki, Gəncə şəhərində müasir dövrümüzə qədər qorunub saxlanılmış iyirmiyə qədər qədim məscid, çoxsaylı türbələr, iki məqbərə, İmamzadə abidəsi, nəsil-şəcərə sərdabələri kimi islam mədəniyyətinə aid yerli memarlıq inciləri ilə yanaşı, islamaqədərki dövrə aid alban məbədləri, kilsələr, həmçinin XIX əsrdə inşa edilmiş xristian və iudaizm dinlərinə aid abidələr də mövcuddur.

Ölkəmizin qərb bölgəsindəki ən qədim pravoslav kilsələrindən biri olan Aleksandr Nevski adına Gəncə şəhərinin Dabbaqlar məhəlləsində yerləşir və müasir dövrümüzə qədər xristian möminlər burada dini ayinlərini yerinə yetirir, mühüm tarixi tarixləri və bayramlarını qeyd edirlər. Bu qədim məbəd mühüm tarixi və memarlıq abidəsi kimi qorunur, şəhər sakinləri pravoslav möminlərə hörmət və ehtiramla yanaşırlar. Burada ölkəmizin Qərb regionunun sayca ən böyük pravoslav icmasının nümayəndələrinin dini, ictimai və sosial-mədəni baxımdan fəaliyyətlərinin təşkili üçün bütün zəruri şərait yaradılmışdır. Ardıcıl, fasiləsiz olaraq nəsildən – nəslə ötürülən ənənələrin, dəyərlərin unudulmaması sayəsində qədim tarixi köklərə əsaslanan milli, dini dəyərlərimiz yalnız feodal münasibətlərinin mövcud olduğu orta əsrlər mərhələsində deyil, yeni dövr mərhələsi – XIX əsr və ondan sonrakı dövrlərdə də yaşadıldı. Təqdirəlayiq haldır ki, tədricən Gəncə şəhərinin çoxsaylı tarixi məhəllələri şəhərsalma vahidləri kimi sıradan çıxsa da, burada yaşayan sakinlər müasir dövrümüzdə də çoxəsrlik birgəyaşayış mədəniyyəti ənənələrini, multikultural dəyərləri, tolerantlıq ənənələrini unutmayır, onları ləyaqətlə yaşadırlar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəhər filialı. F. 20, s. 4, iş 12, v. 3-5.
2. Ахмедов Ф.М. Вернуть подлинные имена. Газета «Новости Гянджи», № 9 (8619). 22 января 1991 г., с. 3.
3. Hasanov E.L. Исследование высоких духовных ценностей в трудах Низами Гянджеви, предшественника А.Навои. "Alisher Navoiy va XXI asr" 8 – Uluslararo Konferansı materialları. Toshkent-Boku, 6-7 fevral 2023, p. 232-238.
4. Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Gəncə: Elm, 2007, 246 s.
5. Hasanov E.L. About research of history of relocations of Ganja city. Scientific journal of the Fergana State University - "FarDU Ilmiy Xabarlar", Fergana State University. Fergana (Uzbekistan), 2022, vol. 28, № 5, p. 101-105. DOI:

https://doi.org/10.56292/SIFSU/vol28_iss5/a17

6. Hasanov E.L. Innovative significance of research of traditional architectural features of Ganja. TSU-TI — The International Scientific Journal of Humanities, 2022, No 1(1), p. 71-74. DOI: https://doi.org/10.55804/TSU-ti-1/Hasanov
7. Hasanov E.L., Marjanli M. Ganja: city of Nizami (Gəncə: Nizami yurdu). Dubai: IRS Publishing House, 2019. 208 s.
8. Hasanov E.L. Innovative basis of historical and ethnographic research of art pottery of ancient Ganja. Mediterranean Journal of Social Sciences, 2016. Volume 7, number 1 (S1), p. 17-20. DOI: 10.5901/mjss.2016.v7n1s1p17
9. Hasanov E.L. About research of features of legal culture on the basis of historical-literary heritage. Information (Japan), 2017. Volume 20, number 4, p. 2289- 2296.
10. Hasanov E.L. Applied significance of investigation of handicrafts branches in Ganja city based on innovative technologies (Historical-ethnographic research). Prague: Vědecko vydavatelské centrum "Sociosféra-CZ" (Czech Republic), 2018, 110 p. ISBN 978-80-7526-323-0.
11. Häsänow E.L. Geschichtliche und ethnographische Merkmale der charakteristische Ornamente von traditionellen Gändschänischen angewandten Künsten. European Science and Technology (Die Europäische Wissenschaft und die Technologien): 21st International scientific conference. Munich (Germany), October 24-25, 2018, p. 11-18.
12. Hasanov E.L. Nizami Ganjavi 880: heritage of Ganja based on architectural and craftsmanship features of Sebzikar graveyard. International Scientific Journal Theoretical & Applied Science, Philadelphia (USA), 2021. Issue 01, volume 93, part 2, p. 144-150. DOI: https://dx.doi.org/10.15863/TAS.2021.01.93.25
13. Hasanov E.L. Local Ganja carpets as the samples of contemporary museum studies. Conferința științifică internațională a Muzeului Național de Istorie a Moldovei. Istorie - Arheologie - Muzeologie. Ediția 31, 28-29 octombrie 2021. Chisinau. Chişinău: Bons Offices SRL (Moldova), 2021, p. 139-140. ISBN 978-9975-87-140-2.
14. Hasanov E.L. Innovative research of national wisdom in works of Nizami Ganjavi. International Scientific Journal Theoretical & Applied Science, Philadelphia (USA), 2022. Issue 01, volume 105, p. 475-481. DOI: https://dx.doi.org/10.15863/TAS.2022.01.105.36
15. Hasanov S.L., Hasanov E.L. Applied features of comparative technical, sociological investigation of historical and contemporary heritage of Azerbaijan. International Scientific Journal Theoretical & Applied Science, 2018. Issue 1, volume 57, part 1. p. 9-16. DOI: https://dx.doi.org/10.15863/TAS.2018.01.57.2
16. Həsənov E.L. Gəncə İmamzadə türbəsi. Bakı: Elm və təhsil, 2012, 268 s.
17. Hüseynova S.B. Gəncə şəhəri haqqında bəzi etnoqrafik qeydlər (XX əsrin əvvəlləri). Kirovabadın maddi, mədəni və ictimai həyatına həsr edilmiş II elmi konfransın materialları. Bakı, 1987, s. 37.
18. Quliyeva N.M., Həsənov E.L. Gəncə şəhərinin tarixi yerdəyişmələri. Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin "Xəbərlər məcmuəsi". İctimai və humanitar elmlər seriyası, № 1(3),Gəncə, 2022, s. 18-31.
19. Muradov V.H. Orta əsr Azərbaycan şəhərləri, Bakı: Maarif, 1983. 155 s.
20. Muradov Z., Həsənov E.L., Əmiraslanoğlu R. Türkiyə-Azərbaycan əbədi amal birliyinin Gəncə səhifələri. Gəncə: Elm, 2022. 111 s.
21. Muradov Z., Hasanov E.L., Amiraslanoğlu R. Türkiye-Azerbaycan ebedi gaye birliğinin Gence sayfaları. Gence: Elm, 2022. 121 s.
22. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: Altay, 2001. 232 s.

23. Nemət M.S. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
24. Poulmarc'h M., Laneri N., Hasanov, E.L. Innovative approach to the research of ethnographic-archaeological heritage in Ganja based on materials of kurgans. International Scientific Journal Theoretical & Applied Science, 2019. Issue 09, volume 77, part 4. p. 341-345. DOI: https://dx.doi.org/10.15863/TAS.2019.09.77.60
25. Smith W., Hasanov E.L. Importance of handicraft traditions in investigation of history of urban culture in Ganja. International Scientific Journal Theoretical & Applied Science, 2013. Issue 11, volume 7, p. 61-66. DOI: http://dx.doi.org/10.15863/TAS.2013.11.7.10
26. The dawn of Art. Leningrad: Aurora Art Publishers, 1974, 196 p.
27. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX - начала XX века. Ленинград: Стройиздат, 1986, 456 с.
28. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку: Изд. АН АССР, 1964. 504 с.
29. Yusifli X.H., Pişnamazzadə S.P., Həsənov E.L. Nizami Gəncəvinin şəcərə tarixi. Gəncə: Elm, 2021. 182 s.

УДК 94 (479.24)

*Э.Л.Гасанов*
*Гянджинское Отделение НАНА*

## ЗНАЧЕНИЕ МУЛЬТИКУЛЬТУРАЛЬНЫХ ЦЕННОСТЕЙ В РАЗВИТИИ ГОРОДСКОЙ КУЛЬТУРЫ В ГЯНДЖЕ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Гянджа, традиции толерантности, мультикультурализм, городская культура

Многовековые традиции толерантности в жилых кварталах города Гянджи в данной научной работе были исследованы с историко-этнографической точки зрения. Значение древних и богатых исторических памятников, а также формирование и сохранение традиций культуры мирного сосуществования - толерантности в Гяндже были впервые изучены на основе различных письменных источников, научных работ, архивных документов и исторических источников. Также были исследованы основные характерные черты формирования и развития мультикультурализма, толерантных ценностей в течение веков в древних кварталах города. Возведение и сохранение до сих пор таких важных материально-культурных памятников как мечети, православный храм, немецкая – лютеранская церковь, албанские храмы – памятники доисламского периода в Гяндже были изучены как основные показатели традиций культуры мирного сосуществования - толерантности в этом древнем городе. В статье были отмечены отдельные статистические данные о национально-этническом составе населения города на основе научных документов. Кроме того, на основе неоспоримых аргументов и фактов, научных источников доказывается значение существования в течение веков таких жилых кварталов как квартал (угол) евреев, отдельный жилой массив лезгинов, лагиджов и др. наряду с местными историческими кварталами Гянджи.

UDC 94 (479.24)

*E.L.Hasanov*
*Ganja Branch of ANAS*

SIGNIFICANCE OF MULTICULTURAL VALUES IN
DEVELOPMENT OF URBAN CULTURE IN GANJA
*SUMMARY*

*Key words:* Azerbaijan, Ganja, tolerance traditions, multiculturalism, urban culture

Tolerance heritage of ancient quarters in Ganja city was investigated from the historical and ethnographic point of view in this scientific paper. For the first time in this research, significance of tolerance culture was studied in investigation of multicultural values in Ganja city, which has an ancient and rich historical past, as well as in the formation and preservation of the traditions of a culture of peaceful coexistence - tolerance. Main characteristic features of the formation and development of multiculturalism, tolerant values over the centuries in ancient quarters of city were also investigated. The construction and preservation of such important material and cultural monuments as mosques, an Orthodox church, the German Lutheran church, Albanian temples - monuments of the pre-Islamic period in Ganja have been studied as the main indicators of the traditions of a culture of peaceful coexistence - tolerance in this ancient city. In article have been noted some statistics on the ethnic composition of the city population based on scientific documents. In addition, on the basis of undeniable arguments and facts, scientific sources, the importance of the existence for centuries of such residential quarters as the quarter (corner) of Jews, a separate residential area of Lezghins, Lahijes, etc. along with the local historical quarters of Ganja is proved.

***Daxil oldu: 02.02.2023-cü il***